# Məqsədi dünya şahmat tacını Azərbaycana gətirməkdir

Şəki şəhəri, 31-ci rayon, Calğalıbulaq küçəsi, dalan 4, ev 2. Heç şübhəsiz ki, bu ünvan hazırda çoxlarına heç nə demir. Sadəcə olaraq tanışlıq üçün bildirək ki, bu ünvanda Süleymanlılar ailəsi yaşayır. Onların binə qurub məskunlaşdıqları bu məkan 2006-cı il oktyabrın 20-də növbəti bir sevinc dolu ana şahidlik etdi.







Ailənin ikinci övladı Süleyman dünyaya göz açdı. Növbəti övladın doğulması valideynləri sevindirməklə yanaşı, narahatlıqlarını da artırır. Fiziki cəhətdən zəif olması, görmə qabiliyyətində çatışmazlıqlar onları həmişə qayğılandırır.

Amma bunların heç biri balaca Süleymanı narahat etmirdi və o, körpə yaşlarından öz dünyasını yaşamaqda idi. Hər şeyə maraq göstərir, acgözlüklə öyrənməyə, nə ilə məşğul olmağa səy göstərirdi.

Şəki şəhər şahmat məktəbində məşqçi-müəllim işləyən anası Gülnarə xanım böyük oğlu Yaquba öz sənətinin sirlərini öyrətsə də, gözləri qüsurlu olan Süleymana şahmat oynamağa qadağa qoyur. Lakin daha düşünmürdülər ki, onlar ana-bala məşq etdikləri zaman artıq Süleyman şahmatın əlifbasına vaqif olmuşdu. İki qardaş arasında gedən oyunu izləyən Gülnarə müəllimə Süleymanın gedişlərini, uşaq ağlı ilə məntiq sərgiləməsini görüncə artıq inad göstərməyin əbəs olduğunu dərk edir. Beləliklə, 4 yaşdan başlayaraq anası Süleymanın üzərində işləməyə başlayır. 5 yaşından isə Süleyman şahmat məktəbinə gedərək şahmatın incəliklərinə yiyələnməyə başlayır.

İlk yarışlara 6 yaşında Göyçay rayonunda keçirilən respublika zona çempionatında başlayan Süleyman 7 yaşında Gürcüstanın Batumi şəhərində keçirilən Avropa çempionatında 5-ci yeri tutur. 8 yaşında isə respublika yarışlarında iştirak edərək 1-ci yerə layiq görülür. Bu da ona Tailandda keçirilən şahmat üzrə dünya çempionatında iştirak etmək üçün vəsiqə qazanmağa şans yaradır. 2015-ci ilin may ayının 2-də isə çempionatda Süleyman 3-cü yerə sahib olur.

Süleyman Süleymanlı ən böyük uğura isə 2015-ci ilin iyun ayında imza atıb. Bu zaman o, Türkiyənin Konya şəhərində keçirilən şahmat üzrə Avropa çempionatında 120 şahmatçı arasında 1-ci yeri tutaraq qitə çempionu adına layiq görülüb.

Süleymanın şahmat sahəsində uğurlar seriyası bu gün də davam edir. Son aylar Biləsuvar rayonunda 8, 10, 12, 14 və 16 yaşadək oğlan və qızlar arasında keçirilən Azərbaycan birinciliyinin seçmə yarışında 1-ci yerə layiq görülərək respublika çempionatına vəsiqə qazanıb.

Qəhrəmanımızın əsas məqsədi Şəhriyar Məmmədyarov, Rauf Məmmədov və mərhum şahmatçımız, üçqat dünya çempionu Vüqar Həşimov kimi dünya çempionu olmaqdır. Həmçinin dünya şahmat tacını ölkəmizə gətirməkdə də iddialıdır.

Əslində Süleymanın can atdığı məqsədə çatmaq üçün yetəcək qədər potensialı var. Sadəcə olaraq, ailəsində olan maddi çətinlik, atası Talehin uyğun iş tapa bilməməsi ailənin digər çətinlikləri ilə yanaşı, Süleymanın gələcəyi üçün də müəyyən problemlər yaradır. Odur ki, perspektiv vəd edən şahmatçımız köməyə ehtiyac duyur. Belə bir köməyin olması isə, şübhəsiz ki, onun dünya şahmat tacına gedən yolunu daha da işıqlandırar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***